Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Bakı məhkəməsi Qarabağda separatçıların cinayətlərini bir-bir sübutlayır...

**44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanan Azərbaycan dövləti 2023-cü ilin sentyabrında keçirdiyi lokal antiterror tədbirləri ilə suverenliyimizi bərpa etdi. Eyni zamanda Qarabağda 30 ildən çox qanunsuz fəaliyyət göstərən separatçı rejimin varlığına birdəfəlik son qoydu, onların kökünü ərazilərimizdən, doğma Qarabağdan kəsdi. Azərbaycanın ərazi bütövlüyünə qəsd edən separatçılar, onların "liderləri", başçıları isə Bakıya gətirilib məhkəmə qarşına çıxarıldı.**

Beləliklə, Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən erməni əsilli şəxslərin üzərində məhkəmə prosesi quruldu. Xalqımıza qarşı törədilən ağır və xüsusi ağır cinayətdə təqsirli bilinən 15 nəfər hazırda Bakı məhkəməsində ittiham olunur. Qeyd olunduğu kimi, onlar İkinci Qarabağ müharibəsindən sonra ərazi bütövlüyümüzün təmin edilməsi zamanı həbs olunaraq istintaq təcridxanasına göndərilib. Əslində, bu, cinayət qanunvericiliyinə görə, cəzanın əsas məqsədlərindən birinə nail olmaq idi. Hər zaman bəyan edildiyi kimi cinayət törətmiş şəxslər cəzalandırılmalı, sosial ədalət bərpa olunmalıdır. Bu şəxslər törətdikləri cinayət əməllərinə görə layiq olduqları cəzaları da alacaqlar. Bu Azərbaycan cəmiyyətinin maraqlarına tamamilə uyğundur.

Qeyd edək ki, toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Respublikası Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunub, hər birinin müdafiə, bildiyi dildən istifadə etmək və digər prosessual hüquqları təmin edilib.

Təqsirləndirilən şəxslərin məhkəməsində şahidlərin verdiyi ifadələr, onların etirafları əsasında gizli qalan bir sıra məsələlər açılır, separatçıların həyata keçirdikləri cinayətlər ifşa olunur və sübuta yetirilir.

Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə iclaslarında təqsirləndirilən şəxslərin ayrı-ayrılıqda cinayətkar birliyin tərkibindəki rollarını təsdiq edən sənədlər və sübutlar elan olunub.

Proses zamanı separatçıların işlədikləri cinayətlər bir-bir özləri tərəfindən etiraf edilir. Məlum olduğu kimi, separatçıların "lideri" Arayik Harutyunyanın 1991-ci ilin dekabr ayında cinayətkar birliyə qoşulmaqla 20 sentyabr 2023-cü ilədək olan müddət ərzində cinayətkar birliyin tərkibində müxtəlif funksiyaları icra etməklə cinayətkar birlik tərəfindən törədilmiş bütün cinayətlərdə bilavasitə və dolayı yolla iştirak etməsi



məhkəmə iclasında tədqiq olunmuş sübutlarla təsdiqlənib.

Tədqiq edilmiş materiallardan birinə əsasən, Arayik Harutyunyanın 1990-cı illərdə Azərbaycana qarşı törədilən cinayətlərdə qardaşı ilə birlikdə iştirak etdiyi, habelə Kərkicahan qəsəbəsində, Xocalıda gedən döyüşlərə qatıldığı təsdiqini tapıb.

Qeyd edilənlər onun sıravi iştirakçı olmadığını, düşmən ordusunun döyüş qabiliyyətinin təmin edilməsində, silahlı dəstələrin fasiləsiz təchizatında və onların qanunsuz silahlı əməliyyatlar aparmaq imkanlarının saxlanılmasında birbaşa rol oynadığını sübut edir.

Məhkəmədə tədqiq etdilmiş videomaterial təqsirləndirilən şəxsin təkcə Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərə səfər etmədiyini, həm də döyüş mövqelərinin yoxlanılması, oradakı qüvvələrin potensialının öyrənilməsi və hərbi əməliyyatların davamlılığının təmin olunmasına yönələn fəaliyyətlərdə bilavasitə iştirak etdiyini sübuta yetirir. Bu isə onun Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı aparılan silahlı təcavüzün informasiya, təşkilati və kadr təminatı istiqamətində mühüm rol oynadığını bir daha təsdiqləyib. O, Azərbaycan xalqına, xüsusilə dinc əhaliyə qarşı çoxsaylı cinayətlərin, terror aktlarının törədilməsində iştirak etməklə yanaşı, qeyd edilən əməllərini sosial şəbəkələr vasitəsilə dünyaya çatdırmaqdan da çəkinməyib.

Bilindiyi kimi, insanlıq əleyhinə müharibə cinayətlərinin hamısında Harutyunyanın və onun "silahdaşlarının" iştirakı var, bu, sənədlərlə sübut olunub.

Azad Vətən Partiyasının sədri Akif Nağı "Bakı-Xəbər"ə bildirdi ki, məhkəmə prosesi bütün həqiqətləri üzə çıxarır. A.Nağının sözlərinə görə, əksəriyyət elə bilirdi ki, A.Harutyunyan son dövrlərdə Qarabağa gətirilib orda qondarma rejimin başçısı təyin edilib, əslində isə başdan o bu separatizm cinayətlərinin içində olub, azərbaycanlılara qarşı cinayətlər törədib. "Keçirilən obyektiv məhkəmə gizli qalan faktları aşkar etdi. Harutyunyan və onun kimi separatçıların cinayətləri ifşa olunur. Harutyunyanın 1991-ci ildən 2023-cü ilin sentyabrına qədər törətdiyi bütün cinayət əməlləri məhkəmədə sübut olundu. Harutyunyan tam şəkildə cinayət məsuliyyəti daşıyır. Bilərəkdən, düşünülmüş şəkildə, qəsdən Azərbaycana qarşı həyata keçirilən bütün hərbi cinayətlərdə iştirak edib. Özü də onun çoxtərəfli cinayət fəaliyyəti olub. Məlum olur ki, 1991-ci ildən, separatizmin ilk dövrlərindən o burda müxtəlif tapşırıqları yerinə yetirib, özü müəyyən mövqe, "vəzifə" tutub, Azərbaycana qarşı törədilən mütəşəkkil cinayətlərin bir hissəsi olub, orda həm təşkilatçı, həm də icraçı kimi iştirak edib. Ona görə də, bunların hamısı nəzərə alınmalıdır. Onun və başqalarının cinayətləri ardıcıl şəkildə sübut olunur. Bunu özləri də görürlər və bu faktların qarısında heç nə deyə bilməzlər. Deməyə sözləri də yoxdur. Fakt ortadadır. Belə bir ifadə var: "fakt tərs şeydi". Sən bu məsuliyyətdən qaça bilməzsən".

A.Nağının bildirdiyinə görə, məhkəmə sənədləri göstərir ki, Harutyunyan sonrakı illərdə Azərbaycanın dinc əhalisinə qarşı cinayətlərdə iştirak edib, kəndlərdə ağır cinayətlərin törədilməsində, kəndlərin dağıdılmasında, dinc azərbaycanlılara işgəncələr verilməsində yaxından iştirak edib.

Bu adamların Azərbaycan dövlətinə və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq, digər qanunsuz əməlləri sübut olunur və buna görə də onlar öz layiqli cəzalarını alacaqlar.

*İradə SARIYEVA*

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***